Практически любая патология, развивающаяся у недоношенных детей, может осложниться кровоточивостью и/или развитием декомприсированного ДВС синдрома.

ДВС синдром наиболее тяжелая и частая форма нарушения системы гемостаза. У недоношенных детей возникает чаще и протекает тяжелее, чем у доношенных.

Установлено, что недоношенные дети склонны к кровоточивости, как во внутриутробном, так и в интранатальном периодах, причем эта тенденция продолжает нарастать сразу же после рождения ребенка и первые дни его жизни. При этом у части таких детей из-за низкой активности фибринолиза и антикоагулянтов, а также развития декомпенсированного ДВС синдрома возможно сочетания кровоточивости с тромбозами. Такие изменения у недоношенных детей может связать с нарушением процессов адаптации в период новорожденности.

XÜLASƏ

Yenidoğulmuşların neonatal dövründə hemostaz sisteminin əsas xüsusiyyətləri

C.F. Qurbanova, N.K. Qazıyeva, R.M. Məmmədova, G.R. Bağırova
Elmi – Tədqiat Mamalıq və Ginekologiya İnstitutu, Bakı, Azərbaycan

Açar sözlər: *hemostaz sistemi, tromboz, neonatal dövr*

Məqələdə neonatal dövrdə hemostaz sisteminin normal göstəriciləri ilə birlikdə bu dövrdə rast gəlinən fəsadların tromboz və hemmorragiyaya səbəb olan amillərin prinsipi, diaqnostikası və profilaktikası haqqında məlumat verilmişdir. Belə ki, bu fəsadların əmələ gəlməsi uşaqların vaxtında doğulmasından və adaptasiya dövründən asılı olması göstərilmişdir.

SUMMARY

The main features of hemostasis of newborns in the neonatal period

J.F. Kurbanova, N.K. Qaziyeva, R.M. Mammedova, G.R. Bagirova
Scientific-Research Institute of Obstetrics and Gynecology, Baku, Azerbaijan

Key words: *hemostasis system, thrombosis, neonatal period*

The assay provides data of the hemostasis system of full-term and preterm newborns in the neonatal period. It reports the principles of diagnosing and preventing the most frequent complications, such as thrombosis and hemorrhage, in the early postnatal period of newborns depending on their birth terms.

ЛИТЕРАТУРА

1. Шабанов В.Н. Гемостаз в динамике первой недели жизни как отражение механизмов адаптации к внеутробной жизни новорожденного. /Клиническая перинатология. Текст. Петрозаводска, 1995.
2. Кудренко И.В. Состояние системы гемостаза у доношенных новорожденных с ЗУВР. Канд. диссертация, 2007.
3. Самыгина Г.А. Научные и практические вопросы неонатальной гематологии /Ж.Гематология и трансфизиология, 1991, №3.
4. Баркаган З.С. Геморрагическое заболевания и синдромы. М.Медицина – 1988 г.
5. Баркаган З.С. и др. Роль и физиологическое значение тромбонемии у здоровых новорожденных. Журнал Гематология и трансфузиология, 1991, №5.
6. Баркаган З.С. и др. Диагностика и контролируемая терапия нарушения гемстаза /Мньюдиамед, 2001.
7. Барканан З.С. и др. Состояние системы гемостаза у новорожденных / Вопросы охраны материнства и детства, 1986, №6.
8. Абрамченко В.В., Шабалов Н.П. Клиническая перинатология. Петрозаводск, Интел. Тек, 2004, с. 301.
9. Мазурин А.В. Геморрагические синдромы у новорожденных /Вопр. Охр мат – 1975, №6.
10. Третьякова О.С. Особенности системы гемостаза в неонатальном периоде. Дитячий Пикар, 2013, №6.

ADENOMİOZ MÜŞAHİDƏ OLUNAN QADINLARDA REPRODUKTİV NƏTİCƏLƏR

Z.S. Hüseynova
Ş. Ələsgərova adına 5 saylı doğum evi, Bakı, Azərbaycan

Açar sözlər: *adenomioz, reproduktiv funksiya pozulmaları, sonsuzluq, özbaşına düşüklər, vaxtından əvvəl doğuşlar*

Adenomioz uşaqlığın xoşxassəli patologiyalarından olub, reproduktiv dövrə təsir edən geniş yayılmış xəstəliklərdəndir. Adenomioz histoloji olaraq endometrium vəzilərinin miometriuma sirayət etməsi ilə xarakterizə olunur, 20% qadınların reproduktiv yaş dövrünə təsir edir və çanaq ağrılarına, anormal uşaqlıq qanaxmalarına, anemiyaya və sonsuzluğa səbəb olur [1-11]. Eyni zamanda bu patoloji durum uzun müddətli hormon terapiyası və ya histerektomiya üçün bir göstərişdir [12].

Son illərin araşdırmaları göstərir ki, adenomiozun 40 yaşdan aşağı qadınlar arasında yayılması təxmini 20-30% təşkil edir [13,14]. Adenomiozun tam diaqnozunu qoymaq üçün patohistoloji müayinənin nəticəsi hələ də əsaslı hesab edilir və yeniyetmə qızlar arasında onun yayılması haqqında məlumat məhdud olaraq qalır. Beləliklə, adenomioz probleminin aktuallığı xəstəliyin inkişafının ilkin mərhələsində diaqnostikasının mübahisəli, uzun və mütərrəqi bir gedişata malik, reproduktiv funksiya pozulmalarına səbəb olması, qadınların həyat keyfiyyətinə mənfi təsir göstərən davamlı xroniki əlamətlər ilə xarakterizə olunur [15,16].

Müasir dövrdə görüntü metodlarının- transvaginal ultarəsəs (USM) və maqnit rezonans müayinələrinin (MRT) inkişafı adenomioz probleminə yeni baxış və həll yollarının işlənib hazırlanmasına imkan verən sahədə böyük irəliləyişlərə şərait yaradır [17,18].

Tədqiqatın məqsədi: retrospektiv qrup üzrə adenomioz müşahidə olunan xəstələrdə reproduktiv funksiya pozulmalarının ümumi xarakteristikasının, yayılmasının, klinika və diaqnostikasının, aparılan müalicə-profilaktika xüsusiyyətlərinin öyrənilməsi, patogenetik əhəmiyyət kəsb edən faktorların aşkar edilməsi.

Tədqiqatın material və metodları: araşdırma retrospektiv olaraq 380 xəstəlik tarixi üzrə 18-45 yaş qrupuna daxil olan reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrin xəstəlik tarixləri üzrə aparılmışdır və 91 xəstədə adenomioz aşkar olunmuşdur. 5 saylı doğum evi, 1 saylı Kliniki Tibbi Mərkəz və "Güvən" özəl klinikasında 2014-2016-cı illərin xəstəlik tarixləri təhlil olunaraq reproduktiv funksiya pozulmalarının müqayisəli təhlili həyata keçirilmişdir.

Daxil olma kriteriyaları: adenomioz müşahidə olunan xəstələrdə reproduktiv funksiya pozulmaları olan qadınlar; adenomioz fonunda hamilə qadınlar; 18- 45 yaşda olan qadınlar.

Çıxarma kriteriyaları: pubertat, peri və postmenopauza dövründə olan qadınlar; adenomioz olmayan və reproduktiv funksiya pozulmaları müşahidə olunan qadınlar.

Xəstələrə rutin olaraq qanın, sidiyin ümumi analizi, yaxmanın müayinəsi, koaqulogramma, qanın biokimyəvi analizləri aparılıb. Xəstəlik tarixləri üzrə reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrin antropometrik xüsusiyyətləri, sosial statusları, yaşayış yerləri, anamnezlərində - menarxe, aybaşı funksiyasının xüsusiyyətləri, ailə vəziyyətləri, qarın boşluğunda və kiçik çanaq orqanlarında aparılan əməliyyatlar, keçirdikləri ginekoloji və ekstragenital xəstəliklər, reproduktiv və generativ funksiyalarının xüsusiyyətləri, o cümlədən hamiləliklərin gedişatı və nəticələri müqayisə edilib. Aparılan terapiyanın effektivliyi qiymətləndirilib.

Xüsusi müayinə metodu olaraq ultrasəs və doppler müayinəsi, histeroskopiya, histerosalpingografiya metodlarının nəticələri araşdırılıb.

Ultrasəs və doppler müayinələri əsasən aybaşı tsiklinin 1-ci və 2-ci fazasında və hamiləliyin trimestrlərinə uyğun protokol üzrə aparılıb. Araşdırma zamanı uşaqlığın vəziyyəti, ölçüləri (uzunluğu, ön-arxa divarının ölçüsü, eni), adenomiozun meyarları müəyyən edilib. Endometriumun qalınlığı, exomorfologiyası, exogenliyi və uşaqlıq boşluğunun dəyişikliyi öyrənilib.

Uşaqlıq boşluğunun vəziyyətini müəyyənləşdirmək məqsədi ilə histeroskopiya və endometriumun morfoloji müayinəsi aybaşının 7-11-ci günləri aparılıb.

Statistik analiz variasiya (KU-Kruskal-Wallis) və diskriminant (Pearson Chi-Square) üsullarının tətbiqi SPSS-22 statistik proqram paketində aparılıb.

Tədqiqatın nəticələri və onların müzakirəsi: Araşdırmaların nəticələri göstərir ki, uşaqlığın xoşxassəli patologiyaları və reproduktiv funksiya pozulmaları olan (380) xəstələr içərisində adenomioz 91 xəstədə müsahidə olunub. Müayinəyə daxil olan qadınlar 21 və 44 yaş (orta hesabla 36±0.7) aralarında olub. Cədvəldən (1) göründüyü kimi risk qrupuna daxil olan xəstələrin əksəriyyətini mərkəzdə yaşayan (74.7%), sosial statusu qənaətbəxş hesab olunan (73.6%), yaşı 34-dən yuxarı olan qadınlar (69.2%) təşkil edib. Ağır bədən çəkisi (ABÇ) 52.6% və piylənmə 15.8% qadınlarda müşahidə olunub. Qeyd etmək lazımdır ki, əvvəlki aparılan tədqiqatların nəticələrində adenomioz zamanı düşüklərin sayının artması qeyd olunsa da, çoxları düşüklərin risk faktorları hesab olunan yaşı və bədən çəki indeksini nəzərə almayıblar [19,20].

Cədvəl 1.
Adenomioz və reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrin ümumi xarakteristikası

Göstəricilər		Adenomioz və reproduktiv funksiya pozulmaları		Chi-square P	PKU
		n	%		
Yaşayış_yeri	Mərkəz	68	74.7%	χ2=1,708 p=0,191	p=0.192
	Region	23	25.3%		
Sosial_status	Qənaətbəxş	67	73.6%	χ2=0.387 p=0.534	p=0.535
	Qeyri-qənaətbəxş	34	26.4%		
Yaş_qrupu	18-24 yaş	4	4.4%	χ2=8.672 p=0.013	p=0.003
	25-34 yaş	24	26.4%		
	> 34 yaş	63	69.2%		
BÇI_N	ABÇ	10	52.6%	χ2=0.870 p=0.647	p=0.537
	Piylənmə	3	15.8%		

Cədvəldə müayinə olunan xəstələrin diqqət cəlb edən somatik xəstəliklərinin xarakteristikası göstərilib (Cədvəl 2). Reproduktiv funksiya pozulmaları və adenomioz rast gəlinən xəstələr arasında anemiya üstünlük təşkil edib və anemiya müşahidə olunmayan xəstələrlə müqayisədə uyğun olaraq 60.4% və 39.6% təşkil edib, statistik fərq p=0.598 olub. Belə ki, adenomioz olan 7 xəstədə (7.7%) arterial hipertenziya, böyrək patologiyaları və neyrosirkulyator distoniya 4.4% (p=0.008) halda müşahidə olunub.

Cədvəl 2.
Adenomioz və reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrin somatik statusu

Göstəricilər		Adenomioz və reproduktiv funksiya pozulmaları		Chi-square p	PKU
		n	%		
Anemiya	müşahidə olunmayıb	36	39.6	χ2=0,663 p=0,718	P=0.598
	müşahidə olunub	55	60.4		
Arterial hipertenziya	müşahidə olunmayıb	82	90.1	χ2=3,099 p=0,078	P=0.079
	müşahidə olunub	9	9.9		
Mədə- bağırsaq sistemi xəstəlikləri	müşahidə olunmayıb	88	96.7	χ2=0,134 p=0,715	P=0.715
		3	3.3		
	müşahidə olunub				
Sinir sistemi xəstəlikləri	müşahidə olunub	87	95.6	χ2=7,017 p=0,008	P=0.008
	müşahidə olunub	4	4.4		
Böyrək patologiyalrı	müşahidə olunmayıb	87	95.6	χ2=0,426 p=0,514	P=0.514
	müşahidə olunub	4	4.4		

Araşdırma zamanı qan qrupunun analizində reproduktiv funksiya pozulmaları müşahidə olunan adenomiozlu xəstələrdə daha çox 2-ci qrup qan üstünlük təşkil edib. Belə ki, 27 xəstədə (29.7%) O (I), 41 (45.1%) xəstədə A (II), 17(18.7%) xəstədə B (III) və 6 (6.6%) xəstədə AB (IV) qan qrupu rast gəlinib (p=0.006) və onlar içərisində rezus mənfi mənsubiyyətli (Rh (-) mənfi) qan 5 (5.5%) xəstədə olub. Müayinə zamanı 1 xəstədə (1.1%) yumurtalıqların polikistozu müəyyən edilib. 7 (7.7%) xəstədə uşaqlığın mioması diaqnozuna əsasən əvvəllər miomektomiya, 13 (14.3%) xəstədə yumurtalıqların sisti diaqnozuna əsasən sistektomiya əməliyyatı icra olunub və 6 (6.6%) xəstədə yanaşı olaraq xroniki endometrit diaqnozu müəyyən edilib.

Cədvəl 3.
Adenomioz və reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrin aybaşı funksiyalarının xüsusiyyətləri

Göstəricilər		Adenomioz və reproduktiv funksiya pozulmaları		Chi-square P	PKU
		n	%		
Aybaşı dövrünün davamiyyəti	<21	46	50.5	χ2= 11,072 p=0,004	P=0.001
	21-35	44	48.4		
	>35	1	1.1		
menorragiya	olunmayıb	25	27.5	χ2= 4,277 p= 0,039	P=0.039
	olub	66	72.5		
metrorragiya	olunmayıb	20	22	χ2=10,636 p=0,001	P=0.001
	olub	71	78		
dismenorreya	olunmayıb	40	44	χ2=18,390 p=0,000	P=0.000
	olub	51	56		

Adenomioz və reproduktiv funksiya pozulmaları təsadüf edilən xəstələrin aybaşı funksiyasının davamiyyətinin xüsusiyyətləri Cədvəl 3-də göstərilmişdir. Araşdırma zamanı müəyyən olunmuşdur ki, aybaşı dövrünün davamiyyəti 50.5% halda 21 gündən az müddətə təsadüf olunub. Məlum olduğu kimi adenomiozun simptomlarına ikincili dismenorreya, ağır və uzun müddətli aybaşı qanaxması, metrorragiya və böyümüş uşaqlıq daxildir [8,14]. Apardığımız araşdırmada aybaşı funksiyasının menorragiya xarakterli pozğunluğu 72.5% halda, metrorragiya 78%, dismenorreya isə 56% halda müşahidə olunub. Göründüyü kimi aybaşı funksiyasının pozulmalarının xüsusiyyətləri arasında ciddi fərq aşkar olmasa da, adenomioz müşahidə olunan və aybaşı funksiyasının pozulmaları olmayan xəstələrlə müqayisədə statistik fərq p=0.000 olub. Xroniki çanaq ağrıları 64 (70.3%) xəstədə müşahidə olunub, ağrı olmayan və adenomioz aşkar olunan xəstələrlə (29.7%) müqayisədə statistik fərq p=0.000 olub.

Cədvəl 4.
Adenomioz və reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrin generativ funksiyalarının xüsusiyyətləri

Göstəricilər		Adenomioz və reproduktiv funksiya pozulmaları		Chi-square p	PKU
		n	%		
Hamilələlik	Olmayıb	14	15.4	χ2= 31,380 p=0,000	P=0.000
	Olub	77	86.6		
Doğuş	Olmayıb	19	20.9	χ2= 34,994 p=0,000	P=0.000
	Olub	72	79.1		
Düşük	Olmayıb	40	44.0	χ2= 15,202 p=0,000	P=0.000
	Olub	51	56.0		
İnkişafdam qalmış hamilələlik	Olmayıb	45	49.5	χ2= 18,067 p=0,000	P=0.000
	Olub	46	50.5		
Vaxtından əvvəl doğuş	Olmayıb	67	73.6	χ2= 2,132 p=0,144	P=0.145
	Olub	24	24.6		

Araşdırmalar zamanı süni mayalanmanın son nəticələrinin meta analizi göstərir ki, adenomioz uğurlu implantasiya göstəricilərinin aşağı olmasına və erkən hamiləlik itkiləri riskinin artmasına, ümumilikdə diri doğulma nisbətinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır [19]. Qeyd etmək lazımdır ki, adenomioz zamanı fertilliyin pozulması problemi və onun həlli yolları son dövrdə aktiv müzakirə olunur və sonsuz xəstələr arasında 15-45% hallarda rast gəlinir [3,15,16]. Reproduktiv funksiya pozulmalarının xarakteristikasına uyğun olaraq adenomioz müşahidə olunan 40 (44%) xəstənin anamnezində fəsadlaşmış ginekoloji anamnez-sonsuzluq, o cümlədən 14 xəstədə (15.4%) 1-cili, 26 (28.6%) xəstədə 2-cili sonsuzluq müşahidə olunub. Eyni zamanda 62 (68.1%) xəstədə fəsadlaşmış mamalıq anamnezi (düşük, inkişafdan qalmış hamiləlik) təsadüf edilib (p=0.001). Adenomioz müşahidə olunan xəstələrin anamnezində reproduktiv funksiya pozulmalarına-düşüklərə, inkişafdan qalmış hamiləliklərə müştərək və ayrılıqda rast gəlinib. Belə ki, adəti düşüklər 51 (56.0%) xəstədə, inkişafdan qalmış hamiləlik 46 (50.5%) xəstədə rast gəlinib. 77 (86.6%) xəstədə hamiləlik baş verib, 72 (79.1%) xəstənin anamnezində doğuş müşahidə olunub. 5 xəstədə baş vermiş hamiləlik doğuşla nəticələnməyib, 24 xəstədə (24.6%) vaxtından əvvəl doğuş müşahidə olunub.

Adenomiozun diaqnostikasında daha çox üstünlük qeyri-invaziv metod hesab edilən vaginal ultrasəs müayinəsinə verilib. Müayinə aybaşı dövrünün birinci və ikinci fazasında aparılıb. Xəstələrdə endometriumun qalınlığı 13.4±0.1 mm olub. Uşaqlığın ölçüləri orta hesabla 67.7±2.0×56.5±1.8×62.9±1.8 müəyyən olunub. Qeyd etmək lazımdır ki, 1-ci dərəcə adenomiozun digər ultrasəs kriteriyaları (endometriumdan miometriuma doğru zolaq şəklində anexogen strukturalar, endometriumun bazal qatında kiçik diametrli (1-2mm) yumru və ya oval formalı hipo və anexogen sahələr, bazal qatın qeyri-bərabər qalınlığı, deformasiyası, miometrium qatının uşaqlıq boşluğu ilə təmas yaradan, exogenliyi artan (3-4mm) müxtəlif sahələrin yaranması) ilə yanaşı, ön-arxa divarının ölçüləri arasında nəzərə çarpan assimetriya və ya uşaqlığın qalınlığının normadan artıq olması müəyyən olunub. 2-ci dərəcəli adenomioz zamanı digər kriteriyalarla yanaşı uşaqlığın böyüməsi təxminən xəstələrin yarısında müşahidə olunub, uşaqlığın, xüsusi ilə ön-arxa divarının ölçülərinin böyüməsi (bir divarın digərinə nisbətən 0.4 sm) müşahidə olunub. Reproduktiv istək yalnız 1-2-ci dərəcəli adenomiozda realizasiya olunub. 3-cü dərəcəli adenomioz zamanı bütün xəstələrdə uşaqlığın böyüməsi müşahidə olunub. 52 (59.1%) xəstədə uşaqlığın ön-arxa divarının assimetriyası müəyyən olunub. Uşaqlığın qalınlığı ocaqlı və düyünlü formalı adenomiozda patoloji törəmənin ölçüsündən asılı olub. Qeyd etmək lazımdır ki, adenomiozun diaqnostikasında rəngli dopplerin və dopplerometriyanın aparılması, qan axını sürətinin ölçülməsi köməkçi rol oynayır. Belə ki, uşaqlığın keçid zonasının ultrasəs görüntüsü və uşaqlıq arteriyasının dinamik doppler analizi daxil olmaqla adenomiozun erkən qeyri-invaziv metodlarının təkmiləşdirilməsi, xəstəliyin erkən mərhələsində diaqnozun qoyulmasına və daha da inkişafının qarşısının alınmasına imkan verə bilər [2,4].

Reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrin xəstəlik tarixlərinin araşdırılması zamanı klinik əlamətləri müşahidə olunan xəstələrdə adenomiozun diaqnostikası USM vasitəsi ilə 33 xəstədə (36.3%) ocaqlı, 46 (50.6%) xəstədə diffuz, 5 (5.5%) xəstədə qarışıq formada müəyyən edilib. 7 (7.7%) xəstədə isə yalnız histoloji müayinənin nəticəsindən sonra aşkar olunub. Bu xəstələrdə reproduktiv funksiya pozulmalaı 1-2-ci hamiləlikdən sonra 2-cili sonsuzluq və ya adəti düşüklərlə xarakterizə olunub, erkən diaqnostika aparılmayıb. Rutin olaraq adenomioz və reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrdə qanın, sidiyin ümumi analizi, yaxmanın müayinəsi aparılıb. Xəstələrin əksəriyyətində anemiya müşahidə olunub, hemoqlobin orta hesabla 10.0±1.9 olub, 21 (25.6%) xəstənin sidiyində bakteriya müşahidə olunub. Koaquloqramma və biokimyəvi analizlərdə bir çox göstəricilərin referens aralığı ilə müqayisəsində kəskin fərq aşkar olunmayıb. Hemostaziograma aparılıb, 11 xəstədə D-dimer 627±59.1nmol/l olub və bu xəstələrə kiçik molekullu heparin terapiyası aparılıb.

Məlumdur ki, CA_{125} -in səviyyəsi orta və ağır formalı endometriozda əhəmiyyətli dərəcədə artır, yüngül formalı endometriozda norma daxilində qalır. Endometrioz zamanı bu göstərici orta hesabla 27.2 V/l olur [3]. Araşdırma zamanı 14 xəstədə CA_{125} yoxlanılıb və orta hesabla 30.0± 3.8 V/l olub (p=0.039). 20 xəstədə (23.3%) uşaqlıq boynu patologiyası müşahidə olunub və Pap test və kolposkopiya müayinəsi aparılıb.

Qeyd etmək lazımdır ki, adenomiozun müalicəsində əsasən cərrahi, habelə hormonal (oral kontraseptiv və progestogen) müalicədən geniş istifadə olunur [10]. Bizim araşdırmada reproduktiv funksiya pozulmaları və adenomioz müşahidə olunan

xəstələrdə müalicə xüsusi ilə konservativ yolla aparılıb. Oral kontraseptivlər 45 (49,5%) xəstəyə təyin edilib. 53 (58.2%) xəstəyə hestogenlər sxem üzrə təyin edilib (p=0.000). Yaşla əlaqədar olaraq 23 (25.3%) xəstəyə noretisteron, əksər xəstələrə didrogesteron təyinatı aparılıb. 18 xəstəyə (19.8%) dienogest (visanne) ilə müalicə aparılıb. Hemostatik terapiya və antianemik müalicə 66 (72,5%) xəstəyə təyin edilib (p=0.003). Onların içərisində 7 (7.7%) xəstəyə stasionar şəraitdə hemotransfuziya aparılıb. Ağrıların (xroniki çanaq ağrılarının) intensivliyindən asılı olaraq 40 (44%) xəstə spazmolitik, analgetik və qeyri-spesifik steroid qrupundan olan dərmanlar qəbul edib.

Son dövrdə aparılan tədqiqatlar göstərir ki, adenomiozun inkişafında trombositlər əhəmiyyəti rol oynayır. Bu baxımdan laxtalanma əleyhinə aparılan müalicə miometrial infiltrasiyanın suppressiyasına, generalizə olunmuş hiperalgeziyanın, uşaqlığın hiperaktivliyinin və kortikosteronun sistem səviyyəsinin azalmasında effektiv hesab olunur [20]. Ümumi nəticələr göstərir ki, laxtalanma əleyhinə aparılan tədbirlər adenomiozun müalicəsində perspektivli ola bilər. Adenomiozun fertilliyə təsiri ilə mövcud faktları və süni mayalanmanın kliniki nəticələrini ümumiləşdirərək Vannucinin və b. göstəririlər ki, uzun müddətli GnRH-a ilə terapiya simptomlu və simptomsuz xəstələrdə kliniki hamiləliklərin tezliyini artırır [18]. Tərəfimizdən aparılan araşdırmalar zamanı uyğun olaraq adenomioz aşkar olunan və reproduktiv funksiya pozulmaları müşahidə olunan 15 xəstə EKM protokolu üzrə (GnRHa ilə terapiya) hamiləliyə hazırlanıb, hamilələk baş verib və müvəffəqityyətlə başa çatıb.

Qeyd edilənləri yekunlaşdıraraq aşağıdakı nəticəyə gəlmək mümkündür:

- reproduktiv funksiya pozulmaları və adenomioz müşahidə olunan xəstələrin əksəriyyətini mərkəzdə yaşayan, sosial statusu qənaətbəxş hesab olunan, yaşı 34-dən yuxarı olan qadınlar təşkil edir;
- daha gənc yaşlarda reproduktiv funksiya pozulmalarına səbəb ola biləcək adenomiozun klinik əlamətlərinin qiymətləndirilməməsi erkən diaqnostikanın aparılmamasına patologiyanın vaxtında aşkar olunmamasına dəlalət edir;
- adenomioz zamanı anemiya reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrin ümumi həyat fəaliyyətinə, orqanizmin ümumi müqavimətinə və xəstəliklə mübarizə prinsiplərinə neqativ təsir göstərir;
- adenomioz zamanı reproduktiv funksiya pozulmaları müşahidə olunan xəstələrdə aybaşı dövrünün davamiyyəti 21 gündən az müddətə təsadüf olunur, lakin aybaşı funksiya pozulmalarının tezlikləri (menorragiya, metrorragiya, dismenorreya) arasında ciddi fərq müşahidə olunmur;
- adenomioz zamanı qarşılanmamış reproduktiv istəyin səbəbi daha çox ikincili sonsuzluq və fəsadlaşmış mamalıq anamnezi (inkişafdan qalmış hamiləlik, düşüklər) ilə xarakterizə olunur;
- adenomiozun diaqnostikasında rəngli dopplerin və dopplerometriyanın aparılması reproduktivtiv funksiya pozulmaları zamanı diaqnostikanın dəqiqiləşməsində köməkçi rol oynayır;
- adenomioz zamanı erkən diaqnostika və vaxtında aparılmış əsaslı müalicə taktikası reproduktiv istəyin realizasiyasına şərait yarada bilər.

Beləliklə, adenomioz müşahidə olunan qadınlarda reproduktiv itkilərin artması, hestasiya prosesinin və doğuşun gedişatının ağırlaşması hamiləliyə hazırlıq dövründə, o cümlədən patologiyanın erkən mərhələsində diaqnozun müəyyənləşdirilməsini və vaxtında korreksiyasını zəruri edir.

РЕЗЮМЕ

Репродуктивные исходы у женщин с аденомиозом

З.С. Гусейнова
Родильный дом № 5 имени Ш. Алескеровой, Баку, Азербайджан

Ключевые слова: *аденомиоз, нарушение репродуктивной функции, бесплодие, самопроизвольный аборт, преждевременные роды*

SUMMARY

Reproductive outcomes in women with adenomyosis

Z.S. Huseynova
Maternity Hospital № 5 named after Sh. Aleskerova, Baku, Azerbaijan

Key words: *adenomyosis, reproductive function disorders- infertility, miscarriage, preterm delivery*

С целью исследования роли аденомиоза в репродуктивной дисфункции, были изучены истории болезни 380 пациентов с нарушением репродуктивной функции, в возрастной категории 18-45 лет. В результате, аденомиоз был выявлен у 91 пациента. Были изучены антропометрические характеристики пациенток, их социальный статус, место жительства, анамнез- менархе, менструальная функция, семейное положение, гинекологические и экстрагенитальные заболевания, проводимые операции в брюшной полости и в органах малого таза, особенности генеративной и репродуктивной функции, а также сравнивались течение и исходы беременности. В качестве специального метода, были изучены результаты ультразвукового и допплеровского обследования, гистероскопии и гистеросальпингографии. Оценивалась эффективность проводимой терапии. Было выявлено состояние, размеры матки и другие основные критерии аденомиоза. Таким образом, бесплодие наблюдалось у 40 (44%) пациентов, в том числе первичное бесплодие у 14 пациентов (15.4%), вторичное бесплодие у 26 (28.6%) пациентов. С учетом полученных результатов можно сделать вывод, что увелечение репродуктивных потерь у женщин с аденомиозом, осложнение процесса вынашивания и родов делают необходимым диагностику и коррекцию патологии на ранней стадии.

The given paper is a part of the trial devoted to the role of adenomyosis in deterioration of reproductive function. With this purpose clinical records of 380 patients of the age 18-45 with unmet reproductive desire were examined and adenomyosis was detected in 91 of them. We studied the anthropometric characteristics of patients with adenomyosis and reproductive function disorders, their social status, place of residence, history of menarche, features of menstrual functions, marital status, gynecological and extragenital diseases, - operation performed in the abdomen cavity and pelvic organs, features of reproductive and generative functions, and also compared the course and outcomes of pregnancies. The effectiveness of the therapy was evaluated. As a special method of research, the results of ultrasound and doppler examinations, hysteroscopy, hysterosalpingography were studied. The condition and size of the uterus and other main criteria of adenomyosis were identified. Thus, in our study, infertility was observed in 40 (44%) patients, including primary infertility in 14 (15.4%) patients and secondary infertility in 26 (28,6%) patients. Taking into account the obtained results, it can be concluded that an increase in reproductive losses in women with adenomyosis, complication of the process of gestation and delivery makes it necessary to diagnose and correct the pathology at an early stage of the disease.

ƏDƏBİYYAT

1. Жигаленко А.Р., Карахалис Л.Ю., Папова Н.С. Клинико-диагностические параллели при аденомиоз-ассоциированном бесплодии. Кубанский научный медицинский вестник, 2017. 24 (4): 65-73.
2. Куценко И.И., Кравцова Е.И., Симовоник А.Н., Рудеева О.А. Ультразвуковая диагностика аденомиоза 1 степени распространения // Современные проблемы науки и образования. – 2017. – № 6. – С.138. eLIBRARY ID: 32390430.
3. Тапильская Н.И., Гайдуков С.Н., Шанина Т.Б. Аденомиоз как самостоятельный фенотип дисфункции эндомиометрия. // Эффективная фармакотерапия. – 2015. – №1(5). – С.62-68. e LIBRARY ID: 23109304.
4. Bazot M., Daraï E. Role of transvaginal sonography and magnetic resonance imaging in the diagnosis of uterine adenomyosis. //*Fertil Steril.* 2018; 109: 389-397.
5. Benadiano G., Brosens I., Habib M. Adenomyosis: the approach from the point of view of the life cycle // Reproductive BioMedicine Online. - 2015. - Vol. 30, № 3. - P. 220-232.
6. García-Solares J., Donnez J., Donnez O., Dolmans M.M. Pathogenesis of uterine adenomyosis: invagination or metaplasia? // *Fertil Steril.* 2018; 109: 371-379.
7. Gordts S., Grimbizis I., Campo R. Symptoms and classification of uterine adenomyosis**.** // *Fertil Steril.* 2018; 109: 380-388.

8. Harada T, Khine YM, Kaponis A, et al. The impact of adenomyosis on women's fertility. Obstet Gynecol Surv. 2016;71(9):557-568.
9. Huang X., Huang Q., Chen S., Zhang J., Lin K., Zhang X. Efficacy of laparoscopic adenomyomectomy using double-flap method for diffuse uterine adenomyosis // BMC Womens. Health. – 2015. – T. 15, № 1 – 24p.
10. Oliveira MAP, Crispi CP, Jr., Brollo LC, et al. Surgery in adenomyosis. // Arch Gynecol Obstet. 2018;297(3):581–589.
11. Pelage L., Fenomanana S., Brun J.L., Levaillant J.M., Fernandez H. Treatment of adenomyosis (excl uding pregnancy project) // Gynecol. Obstet. Fertil. – 2015. – Vol.43, №5. –P. 404-411.
12. Pontis A, D'Alterio MN, Pirarba S, de Angelis C, Tinelli R, Angioni S. Adenomyosis: a systematic review of medical treatment. // Gynecol Endocrinol 2016. 32:696–700
13. Rukhlyada N.N, Krylov K.Y, Biryukova E.I. Organ-preserving surgery for adenomyosis. // Obstetrics and gynecology. 2019. 5: 86-89.
14. Senturk LM, Imamoglu M. Adenomyosis: what is new? // Womens Health (Lond Engl)). 2015;11(5):717–724.
15. Shang W.Q., Yu J.J., Zhu L., Zhou W.J., Chang K.K., et al. Blocking of IL-22, a potential strategy for the treatment of adenomyosis by inhibiting crosstalk between the vasoendothelial and endometrial stromal cells. // Am. J. Transl. Res. – 2015. – Vol. 7, № 10. – P. 1782–1797. PMID: 26692924 7.
16. Tapmeier T.T., Becker M.K. A pale way to understand adenomyosis? // Fertility and Sterility. – 2015. – Vol. 104, № 6. – P. 1378–1378. https://dx.doi.org/10.1016/j.fertnstert.2015.10.005
17. Tan J, Moriarty S, Taskin O et al. Reproductive outcomes after fertility-sparing surgery for focal and diffuse adenomyosis: a systematic review. // J Minim Invasive Gynecol.2018. 25:608–621
18. Vannuccini S, Luisi S, Tosti C, Sorbi F, Petraglia F. Role of medical therapy in the management of uterine adenomyosis. // Fertil Steril.2018.109:398-405.
19. Younes G., Tulandi T. Effects of adenomyosis on in vitro fertilization treatment outcomes: a meta-analysis. // *Fertil Steril* 2017; 108:483-490.
20. Zhu B., ChenY., Shen X., Liu X., and Guo S.-W. "Anti-platelet therapy holds promises in treating adenomyosis:// Experimental evidence," *Reproductive Biology and Endocrinology*, 2016. vol. 14, no. 1, article no. 66.

ERKƏN REPRODUKTİV DÖVRDƏ ÜMUMİ İNFANTİLİZMİ (HİPOQONADOTROP HİPOQONADİZM) OLAN YENİYETMƏ VƏ GƏNC QIZLARIN REPRODUKTİV ORQANLARININ EXOQRAFİK XÜSUSİYYƏTLƏRİ

G.Q. Həsənli, E.M. Əliyeva, E.V. Bayramova, Ş.Z. Əmiraslanova, S.S. Vəliyeva
Azərbaycan Tibb Universitetinin, I Mamalıq-Ginekologiya kafedrası, Bakı, Azərbaycan

Açar sözlər: *infantilizm, hipoqonadtrop hipoqonadizm, cinsi inkişaf ləngiməsi, exoqrafiya, reproduktiv orqanlar*

Problemin aktuallığı. Erkən reproduktiv dövr cinsi yetişkənlik dövründə fiziki və cinsi inkişafı əks edir. Bu dövrdə formalaşmış aybaşı funksiyasına çoxsaylı amillər təsir edir, o cümlədən keçirilən xəstəliklər, təhsil gərginliyi, sosial-iqtisadi durum qidalanma və həyat tərzi [1,2]. Erkən reproduktiv dövr 17-22 yaşda olan yeniyetmə qızların reproduktiv funksiyasını əhatə edir. Aparılan statistik işləmələrə görə 10-19 yaşında olan yeniyetmə qızların sayı bir milyarda qədər çatır. Bu dövürdə yeniyetmə qızlarda sürətli fizioloji və psixoloji dəyişikliklər qeyd olunur [3,4,5].

Y.A.Qurkin [4] ildə aparılan fundamental tədqiqatlara görə, 17-19 yaşlı praktiki sağlam yeniyetmə qızlarda cinsi formula Ma_{3-4}-cü dərəcədə Pb_3, Ax_3, Me+ təyin edilir. Uşaqlıq boynu silindrik, bədən simptomu ++, rektal müayinəyə görə uşaqlıq ilə uşaqlıq boynu arasında bucaq nəzərə çarpır. Exoqrafik göstəricilərə görə uşaqlığın boynunun uzunluğu 4,8 sm, uşaqlıq boynu 2,6 sm, uşaqlığın eni 4,1 sm, ön-arxa ölçüsü 3,3 sm yumurtalıqların uzunluğu 3,2 sm, qalınlığı 2 sm, eni 3 sm.

Təyin edilmişdir ki, 66,55% erkən reproduktiv dövrdə olan qızlar 3-4 infeksion xəstəlik keçirmişdir. Yanxotova E.M. [6] məlumatlarına görə yeniyetmə qızların 74,3%-da göz xəstəlikləri və görmə qabiliyyətinin azalması qeyd edilir. Bu da məktəblərdə və ali təhsil müəssələrində təhsilin gərginliyi ilə izah olunur. Sinir xəstəliklərindən: vegetativ sinir sistemi xəstəlikləri 25,7% təşkil edir, 14-16 yaşda qızlarda bu göstərici 16,4%, 17-19 yaşlı qızlarda isə 19,4% təşkil edir.

Ədəbiyyat müəlliflərinə görə erkən reproduktiv dövrdə olan qızlarda endokrin patologiyadan qalxanabənzər vəzin hiperplaziyası 51,6%, hipertireoz 20,3%, piylənmə və çəki defisiti 28,1%-da qeyd olunur. Bu xəstəliyin 17-19 yaşlı yeniyetmə qızlarda tədricən artması qeyd olunur [7,8].

Çoxsaylı elmi tədqiqatlara əsasən cinsi inkişafın ləngiməsi 0,4-2,5% arasında tərəddüd edir. Yeniyetmə qızların ginekoloji xəstəliklərindən cinsi inkişafın ləngiməsinin tezliyi 14-33%-dir [9,10].

Qəbul olunmuş təsnifata görə cinsi inkişafın ləngiməsinin səbəblərindən:

- Cinsi inkişafın ləngiməsinin konstitusional forması;
- Hiperqonadotrop hipoqonadizm;
- Hipoqonadotrop hipoqonadizm (11,12).

Aparılan elmi tədqiqatlara əsasən fiziki (ümumi infantilizm) və cinsi inkişafın ləngiməsi (genital infantilizm) müalicəsinə aid elmi tədqiqatlar əsasən pubertat dövrdə aparılıb (Расулова Л.А., 2012; Harrington Y., et.al., 2012).

Müəllifə görə, erkən reproduktiv dövrdə olan gənc qızlarda klinik-diaqnostik xüsusiyyətlərə görə gənc qızlar III qrupa bölüm:

- Normoqonodanotop amenoreya;
- Hiperqonadotrop amenoreya;
- Hipoqonadotrop amenoreya.

Hipotalamus-hipofizar sistemin fəaliyyətinə görə normoqonadotrop amenoreyanın rastgəlmə tezliyi 7,1%, hipoqonadotrop amenoreya 64,3%, hiperqonadotrop amenoreya 28,6%.

Hipoqonadotrop amenoreyası olan gənc qızlarda anadangəlmə fiziki inkişafın ləngiməsi 77,8%, Kalman sindromu 11,1%, fiziki gərginlik 11,1%-da qeyd olunur. Hiperqonadotrop amenoreya olan qızların qonadaların disgeneziyası 100% təşkil edin. Erkən reproduktiv dövrdə II amenoreyanın rastgəlmə tezliyi 89,2%-dır.

Hipoqonadotrop amenoreyanın səbəblərindən:

- Hiperprolaktinemiya (prolaktinemiya 24,5%);
- Stress 22%;
- Yumurtalıq polikistoz sindromu 13,6%;
- Hipotireodizm 13,6%;
- Hipertireodizm, tireotoksik ur 8,2%;
- Fiziki gərginlik, idman 6,4%;
- Pəhriz nəticəsində bədən çəkisinin azalması 5,5%;

- Medikamentoz amenoreya 3,6%;
- Xroniki somatik xəstəliklər 2,7% təyin edilib [1,2].

Qeyd etmək lazımdır ki, erkən reproduktiv dövrdə ümumi və genital infantilizmin korreksiyasına və effektivliyinə aid elmi məlumatlar çox azdır. Aparılan müalicənin effektivliyi praktiki olaraq öyrənilməmişdir.

Problemin aktuallığını nəzərə alaraq hazırki tədqiqatın məqsədi təyin edilib.

Tədqiqatın məqsədi: Erkən reproduktiv dövrdə ümumi infantilizmi olan yeniyetmə və gənc qızlarda exoqrafik göstəricilərinin xüsusiyyətlərinin öyrənilməsi olmuşdur.

Klinik material və müayinə metodları. Məqsədə uyğun olaraq 113 ümumi infantilizmi olan yeniyetmə və gənc qızlar müayinə olunub. Müayinəyə kliniki, funksional, hormonal, biokimyəvi, genetik tədqiqatlar daxil edilmişdir (əsas qrup).

Müqayisəli qrupa 30 erkən reproduktiv dövrdə olan praktiki sağlam yeniyetmə və gənc qızlar daxil olunmuşdur.

Əsas qrupa daxil olan yeniyetmə və gənc qızların yaşı 19,56±0,13 (17-22) yaş olmuşdur. Müayinə olunan qızların bədən çəkisi 55,37±1,56 (32-98) kq, boyu 1,57±0,13 (1,36-1,71) m, bədən çəkisi indeksi 22, 5±0,48 (15-48) olmuşdur.

Aparılan tədqiqatda menarxe 15,95±0,12 (12-18) yaşında təyin edilirdi, aybaşı tsiklin müddəti 51,66±1,54 (15-120 gün). Aybaşı tsiklin müddəti 5,24±0,16 (2-10) gün olmuşdur. Müayinə olunan qızların 74-də (49,3%) amenoreya olmuşdur. Onların 22-də (29,7%)-da birincili amenoreya, 52-də (34,7%) amenoreya ikincili olmuşdur.

Erkən reproduktiv dövrdə ümumi və genital ifrantilizmi olan qızlarda yüksək tezliklə amenoreya 36,8% təyin edilir. Bunlardan ikincili amenoreya üstünlük təşkil (25,8%) edir. Müayinə olunan qızlarda yüksək tezliklə oliqomenoreya (25,9%) və alqodismenoreya (25,4%) təyin edilir.

Aparılan tədqiqatda erkən reproduktiv dövrdə olan 30 praktiki sağlam yeniyetmə və gənc qızlar müayinə olunmuşdur.

Müayinə olunan praktiki sağlam qızların 19,64±0,28 (18-21) yaşı, çəkisi 50,55±1,57 (42-56)kq, boyu (1,58±0,02 (1,5-1,71) m olmuşdur. Bədən çəkisi indeksi (BÇİ) 20,36±0,7 (16,4-24) olmuşdur. Müayinə olunan qızların menarxesi 14,73±0,38 (12-16) yaşdan, aybaşı tsikli 30,73±1,33 (25-35) gün, aybaşı müddəti 5,55±0,31 (4-7) gün olmuşdur.

Tədqiqata daxil olan yeniyetmə və gənc qızlara transabdominal ötürücü ilə uşaqlığın, yumurtalıqların USM aparlmışdır. USM Koreya istehsalı olan Valuson S8 aparatında aparılmışdır.

USM zamanı aşağıdakı göstəricilər təyin olunmuşdur:
- uşaqlığın uzunluğu, eni, ön-arxa ölçüsü;
- hər 2 yumurtalığın uzunluğu, eni, qalınlığı, atretik folikulların sayı və yerləşməsi.

Müayinə zamanı yumurtalıqların həcmi aşağıdakı düsturla hesablanmışdır:

$$V(\text{sm}^3) = U \times G \times \sum \times 0{,}5$$

Burada: V – yumurtalığın həcmi;
U – yumurtalığın uzunluğu;
G – yumurtalığın qalınlığı;
Σ – yumurtalığın enidir.

Müayinə zamanı həmçinin endometriumun qalınlığı təyin edilmişdir. Endometriumun qalınlığı (M-exo) erkən proliferasiya fazasında 0,8 sm, sekretor fazada isə 1,2 sm hesab edilir.

Tədqiqat zamanı alınan nəticələr statistik işlənmişdir. Qrup göstəriciləri variasiya sırasında yerləşdirilmişdir. Hər qrup üçün orta qiymət (M), orta qiymətin orta kvadratik meyli (λ^2), onun standart xətası (Se), eyni zamanda sıraların minimal (min) və maksimal (max) qiymətləri müəyyən olunmuşdur.

Statistik işlənmə orta qiymətin parametrik və qeyri-parametrik üsullarla hesablanması üçün nəzərdə tutulmuş «Statgraph» proqramı tətbiq etməklə aparılmışdır.

Tədqiqatın nəticələri və müzakirəsi. Aparılan tədqiqatda erkən reproduktiv dövrdə ümumi infantilizmi (hipoqonadotrop hipoqonadizm) olan yeniyetmə və gənc qızlarda reproduktiv orqanların transabdominal ötürücü ilə USM müayinə aparılmışdır. Hipoqonadotrop hipoqonadizmi olan yeniyetmə və gənc qızlarda uşaqlıq və yumurtalıqların exoqrafik göstəriciləri cədvəl 1-də təqdim edilmişdir.

Cədvəl 1.

Erkən reproduktiv dövrdə olan yeniyetmə və gənc qızlarda hipoqonadotrop hipoqonadizmin exoqrafik göstəricilərinin nəticələri (M±Se)

USM göstəriciləri	Müayinə qrupları		P
	Hipoqonadotrop hipoqonadizm müalicədən əvvəl (n=113)	Müqayisə qrupu (n=30)	
Uşaqlıq			
uzunluğu, sm	3,9±0,12 (1,8-5,5)	6,7±0,13 (4,1-7,52)	<0,05
eni, sm	3,0±0,15 (1,0-5,0)	5,9±0,18 (2,5-6,61)	<0,05
ön-arxa ölçüsü, sm	2,3±0,14 (1,0-5,9)	3,9±0,16 (2,6-4,8)	<0,05
M-exo, sm	0,3±0,02 (0,2-13,6)	0,65±0,03 (0,3-1,1)	<0,05
Sağ yumurtalıq			
uzunluğu, sm	2,18±0,13 (1,0-4,2)	3,38±0,09 (2,8-4,74)	<0,05
eni, sm	1,6±0,08 (1,0-3,5)	2,47±0,03 (1,1-3,8)	<0,05
qalınlığı, sm	1,8±0,04 (1,0-2,8)	2,16±0,02 (1,83-3,1)	<0,05
həcmi, sm^3	3,1±0,04 (1,2-18,3)	9,0±0,06 (5-20)	<0,05
Sol yumurtalıq			
uzunluğu, sm	2,0±0,11 (1,0-3,2)	3,36±0,07 (2,2-5,61)	<0,05
eni, sm	1,43±0,04 (1,0-3,5)	2,8±0,09 (1,2-4,0)	<0,05
qalınlığı, sm	1,52±0,06 (1,0-2,5)	2,25±0,03 (1,2-3,95)	<0,05
həcmi, sm^3	2,2±0,07 (0,5-13)	10,6±0,09 (3-17,2)	<0,05

Qeyd: P – statistik dürüstlük göstəricisidir.

Cədvəl 1-dən göründüyü kimi ümumi infantilizmi (hipoqonadotrop hipoqonadizm) olan yeniyetmə və gənc qızlarda uşaqlığın uzunluğunun, eninin, ön-arxa ölçüsünün, endometrium qalınlığının fizioloji göstəricilərlə müqayisədə statistik dürüst dərəcədə aşağı olmuşdur (P<0,05). Qeyd etmək lazımdır ki, müayinə olan bu qızlarda yumurtalıqların uzunluğu, eni, qalınlığı, həcmi nəzərəçarpacaq dərəcədə aşağı olmuşdur (P<0,05).

Hipoqonadotrop hipoqonadizmi olan qızlarda 6 ay-1 il müddətində patogenetik müalicə aparılmışdır. Bu müalicə hormonal və qeyri-hormonal korreksiyadan ibarət olmuşdur. Hormonal müalicənin əsas məqsədi ilkin estrogen defisitinin bərpası olmuşdur.

Qeyri-hormonal müalicəyə qidanın tənzimi, B, E, C qrupu vitaminoterapiya, adenizotrifosfat turşusu (ATF), fizioterapevtik müalicələr, iynərefleksoterapiya seansları, balneoterapiya, müalicəvi gimnastika, uşaqlıq boynunun elektrostimulyasiyası, ginekoloji massaj olmuşdur.

Ümumi infantilizmin (hipoqonadotrop hipoqonadizmin) müalicəsinin əsas prinsiplərinə:

- Qadın cinsi hormonlarının defisitinin bərpası;
- Pubertat dövrdə fiziki inkişafın stimulyasiyası;
- İkincili cinsi əlamətlərin inkişafı;
- Osteosintez proseslərinin aktivasiyası;
- Tibbi və sosial problemlərinin həlli;
- Hamiləlik və uşaq doğmaq qabiliyyətinin imkanının yaradılmasına riayət edilirdi.

Ümumi infantilizmi (hipoqonadotrop hipoqonadizm) olan qızlarda patogenetik müalicə onu yaradan səbəbə görə aparılmışdır.

Müalicədən sonra alınan exoqrafik göstəricilər cədvəl 2-də təqdim olunmuşdur.

Cədvəl 2.

Erkən reproduktiv dövrdə olan yeniyetmə və gənc qızlarda hipoqonadotrop hipoqonadizmin patogenetik müalicədən sonra exoqrafik göstəricilərinin nəticələri (M±Se)

USM göstəriciləri	Müayinə qrupları		P
	Hipoqonadotrop hipoqonadizm müalicədən sonra	Müqayisə qrupu	
Uşaqlıq			
uzunluğu, sm	4,7±0,14 (3,0-6,8)	6,7±0,13 (4,1-7,52)	<0,05
eni, sm	3,6±0,11 (2,0-5,5)	5,9±0,18 (2,5-6,61)	<0,05
ön-arxa ölçüsü, sm	3,0±0,13 (2,0-6,5)	3,9±0,16 (2,6-4,8)	<0,05

M-exo, sm	0,6±0,04 (2-17)	0,65±0,03 (0,3-1,1)	<0,05
Sağ yumurtalıq			
uzunluğu, sm	3,0±0,09 (2,0-5,0)	3,38±0,09 (2,8-4,74)	<0,05
eni, sm	1,9±0,09 (1,8-3,5)	2,47±0,03 (1,1-3,8)	<0,05
qalınlığı, sm	2,0±0,07 (1,2-4,1)	2,16±0,02 (1,83-3,1)	<0,05
həcmi, sm^3	5,7±0,1 (2,2-24)	9,0±0,06 (5-20)	<0,05
Sol yumurtalıq			
uzunluğu, sm	2,9±0,02 (1,61-3,8)	3,36±0,07 (2,2-5,61)	<0,05
eni, sm	1,81±0,08 (1,9-3,6)	2,8±0,09 (1,2-4,0)	<0,05
qalınlığı, sm	1,89±0,06 (1,2-3,2)	2,25±0,03 (1,2-3,95)	<0,05
həcmi, sm^3	4,9±0,03 (2,2-18)	10,6±0,09 (3-17,2)	<0,05

Qeyd: P – statistik dürüstlük göstəricisidir.

Cədvəl 2-dən göründüyü kimi, uşaqlıq və yumurtalıqların exoqrafik göstəriciləri müalicədən əvvəl analoji göstəricilərlə müqayisədə yüksək olmasına baxmayaraq, praktiki sağlam qızların analoji exoqrafik göstəricilərindən statistik dürüst dərəcədə aşağı olmuşdur (P<0,05).

Beləliklə, erkən reproduktiv dövrdə ümumi (hipoqonadotrop hipoqonadizm) infantilizmi olan yeniyetmə və gənc qızlarda uşaqlığın və yumurtalıqların exoqrafik göstəriciləri, praktiki sağlam qızların exoqrafik göstəricilərindən statistik dürüst dərəcədə aşağı olmuşdur (P<0,05).

Aparılan patogenetik müalicə nəticədində hipoqonadotrop hipoqonadizmi olan qızlarda uşaqlıq və hər 2 yumurtalıqların exoqrafik göstəricilərinin artması müşahidə edilir. Eyni zamanda bu göstəricilər praktik sağlam qızların göstəricilərindən statistik dürüst dərəcədə aşağı olmuşdur (P<0,05).

РЕЗЮМЕ

Особенности эхографических показателей органов репродуктивной системы у подростков и юнных девушек с общим инфантилизмом в раннем репродуктивном периоде

Г.Г. Гасанли, Э.М. Алиева, Э.В. Байрамова, Ш.З. Амирасланова, С.С. Велиева
Азербайджанский Медицинский Университет, 1 Кафедра Акушерства-Гинекогии

Ключевые слова: *инфантилизм, гипогонадотропный гипогонадизм, задержка полового развития, эхография, репродуктивные органы*

Цель исследования: Изучить особенности эхографических показателей у подростков и юнных девушек с общим инфантилизмом в раннем репродуктивном периоде.

Клинический материал и методы исследования. Обследовано 113 подростков и юных девушек с общим инфантилизмом (гипогонадотропным гипогонадизмом) (основная группа). В сравнительную группу включили 30 практически здоровых юных девушек, находящихся в раннем репродуктивном периоде. Средний возраст юных

SUMMARY

Features of echographic indicators of the organs of the reproductive system in adolescents and young girls with general infantilism in the early reproductive period

G.G. Hasanli, E.M. Aliyeva, E.V. Bayramova, S.S. Veliyeva, S.Z. Amiraslanova
Azerbaijan Medical University, Department of Obstetrics and Gynecology I, Baku, Azerbaijan

Key words: *general infantilism, hypogonadotropic hypogonadism, delayed puberty, echography, reproductive organs*

Goal of investigation: To study the features of echographic indicators in adolescents and young girls with general infantilism in the early reproductive period. Material and Methods: The study involved 113 adolescents and young girls with general infantilism (hypogonadotropic hypogonadism) (main group). The comparative group included 30 apparently healthy young girls in the early reproductive period. The average age of young girls was 19.56 ± 0.13 years, weight 55.37 ± 1.56 kg, height 1.57 ± 0.13 cm, body mass index was 22.5 ± 0.48.

девушек составил 19,56±0,13 лет, вес 55,37±1,56 кг, рост 1,57±0,13 см, массо-ростовой индекс составил 22,5±0,48.

Результаты исследования. Установлено, что у подростков и юных девушек с общим инфантилизмом (гипогонадотропным гипогонадизмом) отмечается существенное уменьшение эхографических показателей матки и обоих яичников.

Проведенная патогенетическая терапия, включающая гормональные и не гормональные методы коррекции, позволили статистически достоверно увеличить эхографические показатели матки и яичников. В тоже время данные эхографических показателей были значительно ниже аналогичных показателей у практически здоровых девушек (P<0,05).

Results: It was found that adolescents and young girls with general infantilism (hypogonadotropic hypogonadism) showed a significant decrease in the echographic parameters of the uterus and both ovaries. The conducted pathogenetic therapy, including hormonal and non-hormonal methods of correction, made it possible to statistically significantly increase the echographic parameters of the uterus and ovaries. At the same time, the data of echographic indicators were significantly lower than those of practically healthy girls (P <0.05).

ƏDƏBİYYAT

1. Əkbərli K.R., Əliyeva E.M., Qaraşova M.A. Erkən reproduktiv dövrdə amenoreyalı qızlarda cinsi inkişafın xüsusiyyətləri // Azərbaycan təbabətin müasir nailiyyətləri, 2014, N3, s.203-206.
2. Акперли К.Р., Алиева Э.М., Алиева Н.Ш. Особенности патологических процессов при аменорее у девушек раннего репродуктивного возраста // Всеукраинский научно-практический журнал «Здоровье женщины», 2014, №7, с.115-117.
3. Герасимова Л.И., Денисова Т.Г., Сидорова Т.Н. Мониторинг факторов риска рождения детей с синдромом задержки внутриутробного развития // Общественное здоровье и здравоохранение, Казань, 2010, № 2, с. 73-74.
4. Гуркин Ю.А. Гинекология подростков // Руководство для врачей, Санкт-Петербург, Фолиант, 2000, 573 с.
5. Демидов В.Н., Краснова К.Г. Возможности эхографии в диагностике пороков развития матки, шейки матки и влагалища // Ультразвуковая и функциональная диагностика, 2015, №5, с.44-50.
6. Янхотова Э.М. Влияние соматической и гинекологической патологии на репродуктивное здоровье девушек-подростков Чеченской Республики // Автореф., к.м.н., Мослква, 2011, 25 с.
7. Московкина А.В., Пузикова О.З., Линде В.А. Стессиндуцированная гиперпролактинемия у девочек-подростков с синдромом гиперандрогении // Репродуктивное здоровье детей и подростков, 2016, №2, с.20-21.
8. Уварова Е.В, Трифонова Е.В. Гипогонадотропный гипогонадизм // Рупродуктивное здоровье детей и подростков, 2008, 784 с.
9. Bacopoulou F., Creatsas C., Chrousos G.P., Papanikolaou N. Primary amenorrhea in adolescent girls: normal coitus or not? Always take a look in the physician's office // BMC Women's Health, 2014, №14, p.23.
10. Dwyer A.A., Raivio T., Pitteloud N. Management of endocrine disease: reversible hypogonadotropic hypogonadism // Eur.J. Endocrinol, 2016, №174, p.267-274.
11. Fourman L.T., Fazeli R.K. Neuroendocrine causes of amenorrhea – an update // J.Clin. Endocrinol. Metab., 2015, vol.100, №3, p.812-824.
12. Harrington J., Palmet M.R. Distinguishing Constitutional Delay of Growth and Puberty from isolated Hypogonadotropic Hypogonadism: Critical Appraisal of Available Diagnostic Tests // J. Clin. Endocrinol. Metab., 2012, vol.97, №9, p.3056-3067.

OLİGOMENOREYA İLƏ REPRODUKTİV YAŞDA OLAN XƏSTƏLƏRDƏ AUTOİMMUN DƏYİŞİKLİKLƏRİN DİAQNOSTİKASI

K.P. Adıgözalova İbadullayeva
Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı, Azərbaycan

Açar sözlər: *oliqomenoreya, reproduktiv yaş, autoanticisimlər, autoimmun pozuntular, alqoritm*

Menstruasiya pozuntuları dünya miqyasında ginekoloji xəstəliklərinin əsas səbəbidir [1, 2]. Reproduktiv yaşda olan qadınlarda rast gəlinən menstruasiya pozğunluqlarının ən çox görülən növlərindən biri oliqomenoreyadır. Bu cür menstruasiya pozğunluqlarının klinik nəticələri konkret diaqnozdan, və sonsuzluq, və ya digər hormonal, və ya metabolik xəstəliklər kimi əlaqəli problemlərin olub-olmamasından asılıdır [3-5]. Oliqomenoreyanın səbəbi yumurtalıqların polikistozu, yumurtalıq və böyrəküstü vəzin androgen ifraz edən şişi, Kuşing sindromu, hiperprolaktinemiya, hipertiroidizm, hipotalamik amenoreya, kiçik çanaq orqanlarının iltihab xəstəlikləri, 1 tip şəkər diabeti, anatomik problemlər və s. ola bilər [5, 6].

Məlumdur ki, yumurtalıq funksiyası pozulduqda menstruasiya siklinin pozulması baş verir. Qadın sonsuzluğunun 39%-i yumurtalıq disfunksiyası ilə əlaqəli olduğu bildirilir [7, 8]. Yumurtalıq disfunksiyasının səbəblərindən biri də yumurtalıq autoimmuniteti ola bilər. Güman edilir ki, autoimmunitet reproduktiv yaşlı qadınlarda yumurtalıqların disfunksiyasının əhəmiyyətli səbəbi ola bilər [7, 9]. Yumurtalıqların mikrosomal anticismlərindən və oosit anticisimlərindən istifadə edərək, aybaşı pozulmasının autoimmun əsası 69% qadında aşkar edilmişdi [10].

Xüsusi autoanticisimlərin aşkarlanması autoimmun pozulmalar üçün ən praktik klinik və tədqiqat göstəricisi olaraq qalır. Autoimmunitetin göstəricisi olan yumurtalıqlara spesifik anticisimlərə dair bir fikir birliyinin olmaması klinik tədqiqatların aparılmasının vacibliyini göstərir.

Tədqiqatın məqsədi oliqomenoreya ilə reproduktiv yaşda olan qadınlarda autoimmun patologiqanın diaqnostika alqoritmi işlənib hazırlanması idi.

Material və metodlar. 2015-2018–ci illər ərzində Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun Ginekologiya şöbəsinə müraciət etmiş qadınlar tədqiqata könüllülük əsasında cəlb edilmişdir. Tədqiqat Ümumdünya Səhiyyə Təşkilatının Helsinki Bəyannaməsinin "İnsanların iştirakı ilə biotibbi tədqiqatla məşğul olan həkimlər üçün tövsiyələr" prinsiplərinə uyğun olaraq aparılmışdır.

Bütün xəstələrə aparılan tədqiqat haqda məlumat verilmiş, razılıq əsasında müayinəyə cəlb olunmuşlar. Araşdırmada iştirak edən bütün qadınlar məlumatlı razılıq imzaladılar.

Aybaşı siklinin birincili və ikincili oliqomenoreya (N91.3 və N91.4 XBT-yə əsasən) şəklində pozulması ilə olan 110 xəstə əsas qrupun kriterilərinə uyğun olduğu üçün bu qrupa daxil edildi. Əsas qrupa daxil olma meyarları:

- Yaş 18-dən kiçik 45-dən böyük olmaması
- Aybaşı siklinin birincili və ikincili oliqomenoreya şəklində pozulması;
- Aybaşı dövrünün müddəti 43 gündən 6 aya qədər;
- Aybaşı arasındakı fasilə 35 gündən çox;
- Aybaşı müddəti 1-2 gün;
- Spesifik ginekoloji xəstəliklərin (qonoreya, vərəm, solğun treponema, xlamidiya, ureaplazma, mikoplazma və s.) olmaması;

İstisna meyarları:

- Anadangəlmə inkişaf qüsürlarının olması;
- Böyrəküstü vəzlərin qabığının anadangəlmə disfunksiyası, hipotalamo-hipofiz və yumurtalıq çatışmazlığı, xromosom anomaliyarla birlikdə;
- Qalxanabənzər vəzi xəstəliklərin olması;
- Kiçik çanaq orqanlarının kəskin və ya xroniki xəstəliklərinin olması;
- Ağır somatik patologiyalar (ürəyin işemik xəstəliyi, stenokardiya, xroniki böyrək çatışmazlığı), qan və qanyaradıcı orqanlarının xəstəliklərin olması, ağır forma trombofiliyanın olması;
- Yenitörəmələrin olması.

Kontrol qrupun qadınları profilaktiki gəliş zamanı müayinə edilmişdir. Bu qrup qadınlarda menstrual funksiyada pozulma qeyd olunmamış,

müntəzəm ovulyator sikl 28-30 gündən bir qeyd edilmiş, anamnezində diri, vaxtında doğulma ilə nəticələnən hamiləliyin olması, ağırlaşmış mamalıq-ginekoloji anamnezi və ağır somatik patologiya qeyd edilməmişdir.

Kontrol qrupa daxil olma meyarları:


- Yaş 18-dən kiçik 45-dən böyük olmaması;
- Birinci və ikinci qrup sağlamlıq;
- Cinsi yetişkənliyin davamlı mərhələləri;
- Menstural siklin requlyar olması;
- Normal fiziki və cinsi yetişkənlik;
- Qadın tipli tüklənmənin olması və hiperandrogeniya tipli əlamətlərin olmaması;
- Bədən çəki indeksinin 18,6 – 24,9 kq/m^2 arasında olması;
- Aybaşı qanamasının 3-5 gün davam etməsi;
- Ginekoloji orqanlarının spesifik iltihabı xəstəliklərinin olmaması;
- Anamnezində abort və doğuşların ola bilməsi;
- Kiçik çanaq orqanlarının qeyri spesifik iltihabı proseslərinin olmaması;
- Anamnezində xromosom və monogen patologiyalarının olmaması.

Müayinəyə cəlb olunmuş qadınlardan bu meyarlara uyğun gələn 50 qadın seçildi və kontrol qrupa daxil edildi.

Əsas və nəzarət qruplarda qadınlarda sosial və məişət şərait müvafiq olaraq 93,6% və 94,0% hallarda qənaətbəxş idi. Əsas qrupda 40 (36,4%) pasiyentdə ali, 56 (50,9%) - orta və 14 (12,7%) pasiyentdə natamam orta təhsili, nəzarət qrupda isə müvafiq olaraq 17 (34,0%), 26 (52,0%) və 7 (14,0%) qadında idi.

Bütün qadınlarda kliniki-laborator və instrumental müayinələr aparılmışdır (şək.1).

Şəkil 1.
Tədqiqatda tətbiq edilmiş klinik-diaqnostik metodlar



USM-i Philips HD 6 aparatında (ABŞ) 7 Hz və 3,5 MHz vaqinal sensorla aparıldı. Follikulstimuləşdırıcı hormon (FSH), luteinləşdirici hormon (LH), prolaktin (PL), estradiol, ümumi testosteronun, T3, T4, TTH müəyyənləşdirilməsi qan serumunda, menstruasiya dövrünün üçüncü günü erkən follikulyar fazada İFA metodla İmmulite 1000 analizatorunda (Siemens, Almaniya) aparılmışdır.

DHEAs-in təyin edilməsi üçün DiaMetraSRL (İtaliya) test dəsti istifadə edilmişdir. Metod rəqabət edən bir fermentə bağlı immunosorbent analizinə əsaslanır. Qan serumunda Müller əleyhinə hormonun (AMH) qatılığı UniCel DxI 800 analizatorunda (Beckman Coulter, ABŞ) ELISA ilə təyin edilmişdir. Antiovarial anticisimləri (AOA), tireoqlobulinə (TQ-a) və tireoperoksidazaya (TPO-a) anticisimləri qan serumunda İFA metodu ilə ORGenTec Diagnostika (Almaniya) test sistemlərin köməyi ilə aşkarlandı. Ölçmə Cobas 6000 e-601 analizatorunda (Roche, Diagnostics, Basil) aparılmışdır. Alınan nəticələrin statistik təhlili Microsoft Excel release 16-da (StatSoft, ABŞ) "Statistica" proqramı istifadə edilərək aparılmışdır. Göstəricilər orta ± standart sapma (SD), mütləq rəqəmlər və faizlər şəklində ifadə edildi. Styudentin t-meyarı (t) hesablanmışdır. Statistik göstəricilər $p<0,05$ səviyyəsində əhəmiyyətli hesab edilirdi.

Nəticələr. Oliqomenoreyalı və nəzarət qrup qadınların orta yaşı müvafiq olaraq 31,39 ± 6,05 və

30,52 ± 5,92 il (p = 0.918, t = 0.10) təşkil etmişdir. Anamnestik məlumatları təhlil edərkən reproduktiv funksiyanın 57 (51,8%) xəstədə həyata keçirildiyi aşkar edilmişdir. Oliqomenoreyalı qadınlarda menarxinin yaşı orta hesabla 13,47 ± 0,91 il (p = 0,667, t = 0,43), aybaşı müddəti 3,5 ± 0,57 gün (p = 0,239, t = 1,18) olmuşdur. Kliniki müayinədə əsas qrup qadınların boyu, çəkisi və bədən kütləsi indeksi (BKİ) nəzarət qrupundakılardan əhəmiyyətli dərəcədə fərqlənmirdi. Anamnez məlumatın təhlili göstərmişdir ki, 110 xəstədə nəzarət qrupu ilə müqayisədə spontan abort sayı (p = 0,045, t = 2,02) və erkən doğuş (p = 0,047, t = 2,00) artmışdır. Ultrasəs müayinəsinin nəticələrinə görə, yumurtalıqların həcmi, stromanın eni və follikul sayı nəzarət qrupundakılara nisbətən müvafiq olaraq 54,54% (p = 0,028, t = 2,21), 45,50% (p = 0,031, t = 2,17) və 26,64% (p = 0,027, t = 2,23) çox idi. Diametri 2-5 mm və 6-9 mm olan follikullərin sayı da əsas qrup qadınlarında müvadiq olaraq 17,2% (p = 0,0325, t = 0,99) və 32,30% (p = 0,194, t = 1,30) daha yüksək idi. Əsas qrupda qalxanabənzər vəzinin USM zamanı nəzarət qrupla müqayisədə autoimmun dəyişikliklər 76,9% (p <0,001) hallarda, düyünlər isə 26,6% (p <0,05) hallarda daha tez-tez müşahidə edilirdi. Hormonal vəziyyəti və anticiaimlərin qatılığını qiymətləndirilərkən əsas qrupda LH (p = 0.048), AMH (p = 0.048) və yumurtalıqlara (p = 0.044), tireoqlobulin (p = 0.024) və tireoperoksidazaya (p = 0,003) anticisimlərin statistik əhəmiyyətli artım diqqəti cəlb etmişdir (cədvəl).


Cədvəl

Tədqiqat qruplarında xəstələrdə qanda hormonların və anticisimlərin qatılığı

Göstərici	Əsas qrup (n=110)	Nəzarət qrup (n=50)	t-meyyar	P
FSH, mBV/ml	5,16±0,75	6,38±0,70	1,19	0,236
LH, mBV/ml	10,28±2,41	4,96±1,13	2,00	0,048
LH/FSH	2,01±0,27	1,12±0,18	2,74	0,007
Prolaktin, mBV/ml	374,5±68,82	330,7±47,11	0,53	0,600
DHEA-S, nmol/l	2,57±0,51	2,64±0,43	0,10	0,916
Ümumi testosteron, nmol/l	2,43±0,56	1,48±0,34	1,45	0,149
Estradiol, nmol/l	0,27±0,09	0,43±0,07	1,40	0,163
AMH, nq/ml	6,38±0,86	4,22±0,66	1,99	0,048
TTH, BV/ml	3,31±1,48	2,56±0,99	0,41	0,681
T3, nmol/l	4,33±1,23	4,29±0,80	0,03	0,978
T4, nmol/l	15,74±4,20	15,58±3,33	0,06	0,956
T3/T4	0,27±0,12	0,29±0.07	0,14	0.886
AC-TQ, BV/ml	124,12±37,87	35,75±8,57	2,28	0,024
AC-TPO, BV/ml	196,17±55,76	27,71±7,13	3,00	0,003
AOA, nq/ml	6,36±1,14	3,06±1,16	2,03	0,044

Alınan nəticələrə əsasən, oliqomenoreya ilə reproduktiv yaşda olan xəstələrdə autoimmun dəyişikliklərin diaqnostikası üçün alqoritm tərtib olunub (şək.2).

Şəkil 2.
Reproduktiv yaşda olan oliqomenoreyalı qadınlarda autoimmun dəyişikliklərin diaqnostika alqoritmi



Təqdim olunan diaqnostik metodlar kompleksindən və təklif olunan alqoritmdən istifadə, oliqomenoreya ilə reproduktiv yaşda olan xəstələrin aparılması üçün optimal və fərqli taktikalarını seçməyə kömək edəcəkdir.

Müzakirə. Oliqomenoreya menstruasiya dövrünün tez-tez rast gəlinən pozulmasıdır. Oliqomenoreyalı xəstələrinin aparılmasında menstruasiya dövrünün davamlığı, normal aybaşı günləri, gündə istifadə olunan üzləmələrin sayı, iki dövr arasındakı fasilə və əvvəlki dövrlərin müntəzəmliyi da daxil olmaqla aybaşının ətraflı anamnezinin toplanması vacibdir. Bu məlumat qanaxma miqdarı, ildə dövrlərin miqdarı və menstruasiya dövrünün müntəzəmliyi barədə təsəvvür verir ki, bu da oliqomenoreya diaqnozuna kömək edəcəkdir.

Menstruasiya dövrləri arasında hər hansı bir qeyri-müntəzəm qanaxmalar istisna edilməlidir. Oliqomenoreyanın inkişafından əvvəl, əvvəlki qanaxmalar haqqında məlumat xəstədə ilkin qanaxmanı və dəyişmə dərəcəsini bilmək üçün vacibdir.

Yumurtalıq həm reproduktiv, həm də endokrin orqan kimi fəaliyyət göstərir. Bu funksiyalar bir-biri ilə sıx bağlıdır. Proqnozlaşdırılan menstrual dövrün reproduktiv yaşda yumurtalıqların sağlam fəaliyyətinin bir əlamətidir. Normal bir menstruasiya dövrü, hipotalamus, hipofiz və yumurtalıq hormonları arasındakı kompleks qarşılıqlı təsirlərdən və endometriumun bu hormonlara reaksiyasından təsirlənir. Qısaca, gonadotropini azad edən hormonun hipotalamus tərəfindən dövrü ifrazı, hipofizdən FSH və LH ifrazına səbəb olur. FSH-nin təsiri altında bir neçə yumurtalıq follikulu böyüməyə və inkişaf etməyə başlayır [11, 12]. Hər ay yumurtalıqlarda aydın koordinasiyalı hormonal dəyişikliklər və morfoloji dəyişikliklər inkişaf edir, nəticədə mayalanmağa hazır olan yetkin bir oosit sərbəst buraxılır. Bu prosesin pozulması anovulyasiyaya və yumurtalıq steroid hormonlarının çatışmazlığına səbəb ola bilər [10, 13]. Menstruasiya ovulyasiya ilə əlaqəli olduğundan, oliqomenoreyanın klinik təzahürləri ovulyasiya ilə əlaqələndirilir. Bu proqnozlaşdırılan ovulyasiya və menstruasiya hormon dövrü ilə tənzimlənir [13, 14].

Yumurtalıq ümumiyyətlə, yumurtalıq disfunksiyasına gətirib çıxaran autoimmun hücumun hədəfi olur və bu, səbəbi açıqlanmayan sonsuzluq, yumurtalıqların polikistoz sindromu və ya endometrioz kimi özünü göstərə bilər [10, 13, 14]

Bizim tərəfimizdən alınmış nəticələrə əsasən, nəzarət göstəricilərlə müqayisədə oliqomenoreya ilə reproduktiv yaşlı qadınlarda qanda AOA, anti-TPO və anti-TQ müvafiq olaraq orta hesabla 2,1 dəfə (r=0,044-ü), 7,1 (r=0,003) və 3,5(r=0,024) dəfə artım göstərildi. Tədqiqatın məlumatları müayinə olunan qadınlarda oliqomenoreya ilə autoimmun puzulmalarının diaqnozunu qoymağa imkan verdi. Tədqiqatçılar qeyd edirlər ki, TG, TPO və yumurtalıqlara anticisimlərin qatılığı normal dəyərləri bir neçə dəfə aşarsa, autoimmun pozulmalar diaqnozu qoyulur [7, 10, 15, 16].

Ümumiyyətlə, AOA-nın aşkarlanması yumurtalıqlarda autoimmun zədələnməni, anti-TQ-nin yüksək konsentrasiyası ləng tiroiditin gedişini gəstərir, qan serumundakı anti-TPO qalxanabənzər vəziyə qarşı autoimmun hücumun olduğunu göstərir və analiz nəticələri nəzarət dəyərindən nə qədər çox kənara çıxsa, bu tip patoloji ehtimalı o qədər yüksək idi.

Qeyd etmək lazımdır ki, menstruasiya pozğunluqlarında autoimmun mexanizminin diaqnozu uzun müddət antiovarial autocisimlərin aşkarlanmasına əsaslanırdı, lakin son zamanlarda autoimmun reaksiyanın hüceyrə komponentinə də xüsusi diqqət yetirilir [17]. Bununla belə, mollekulyar hədəflərin autoimmun effektorları haqqında məlumat azdır və autoantigenlər rəsmi olaraq çox az miqdarda müəyyən edilmişdir [17].

Beləliklə, autoimmun etiologiyanın etibarlı diaqnozu müşayiət və ya gələcək əlaqəli autoimmun pozmaların üzə çıxardılması üçün, həmçinin pasiyentlərin seçimi üçün lazımdır, Belə xəstələrdə immunomodulə terapiya, ən azı müvəqqəti olaraq, yumurtalıq funksiyasını bərpa edə bilər.

Yekun. Tədqiqat əsasında, oligomenoreya ilə reproduktiv yaşda olan qadınlarda yumurtalıqlarda autoimmun zədələnmənin inkişafı və qalxanabənzər vəziyə qarşı autoimmun aqressiya aşkar edilmişdir. Hazırki tədqiqat təklif olunan diaqnostik alqoritmin oliqomenoreyadan əziyyət çəkən qadın kontingentində istifadəsini tövsiyə etməyə imkan verir.

РЕЗЮМЕ

Диагностика аутоиммунных нарушений у пациенток репродуктивного возраста с олигоменореей

К.П. Адыгезалова Ибадуллаева
НИИ Акушерства и гинекологии, Баку, Азербайджан

***Ключевые слова**: олигоменорея, репродуктивный возраст, аутоантитела, аутоиммунные нарушения, алгоритм*

Обнаружение специфических аутоантител остается наиболее практичным клиническим и исследовательским маркером при нарушенном менструационном цикле. Отсутствие консенсуса в отношении специфических антител к яичникам, как маркера аутоиммунитета, имеет клинические и исследовательские последствия. Цель – разработать алгоритм диагностики аутоиммунной патологии у женщин с репродуктивного возраста с олигоменореей. Материал и методы. Обследовано 110 женщин репродуктивного возраста с олигоменореей (основная группа) и 50 женщин фертильного возраста без расстройства менструального цикла (контрольная группа).

SUMMARY

Diagnosis of autoimmun changes in patients of reproductive age with oligomenorrhea

K.P. Adygezalova Ibadullaeva
Scientific Research Institute of Obstetrics and Gynecology, Baku, Azerbaijan

***Keywords:** oligomenorrhea, reproductive age, autoantibodies, autoimmune disorders, algorithm*

The detection of specific autoantibodies remains the most practical clinical and research marker for menstrual irregularities. Lack of consensus on ovarian-specific antibodies as a marker of autoimmunity has clinical and research implications. The purpose is to develop an algorithm for diagnosing autoimmune pathology in women of reproductive age with oligomenorrhea. Material and methods. We examined 110 women of reproductive age with oligomenorrhea (main group) and 50 women of fertile age without menstrual disorders (control group). Anamnesis collection, physical and instrumental laboratory research were carried out. LH, FSH, prolactin, DEHA-s, total testosterone, estradiol, anti-

Проведен сбор анамнеза, физикальное и инструментально-лабораторное исследование. Определены в крови ЛГ, ФСГ, пролактин, ДЭГА-с, общий тестостерон, эстрадиол, антимюллеров гормон, и антитела к яичникам, тиреоглобулину и тиреопероксидазе. Использованы ИФА и иммунохемилюминесцентный метод. Статистический анализ проведен в Excel Statistica (StatSoft, USA). Результаты. Средний возраст, рост, вес и ИМТ женщин основной группы существенно не различались от показателей группы контроля. У пациентов основной группы в сравнении с группой контроля повышено число самопроизвольных выкидышей (p=0,045, t=2,02) и преждевременных родов (p=0,047, t=2,00). Объем яичников, ширина стромы и число фолликулов статистически значимо превышали таковые в контрольной группе на 54,54% (p=0,028, t=2,21), 45,50% (p=0,031, t=2,17) и на 26,64% (p=0,027, t=2,23) соответственно. Число фолликулов с диметром 2-5 мм и 6-9 мм также было выше у женщин основной группы – на 17,2% (p=0,0325, t=0,99) и на 32,30% (p=0,194, t=1,30) соответственно. В щитовидной железе в основной группе аутоиммунные изменения встречались на 76,9% (p<0,001), узлы – на 26,6% (p<0,05) чаще, чем в группе контроля. У женщин основной группы в сравнении с контрольными показателями повышены уровни АОА, АТ-ТПО и АТ-ТГ в среднем в 2,1 (p=0,044), в 7,1 (p=0,003) и в 3,5 раза (p=0,024) соответственно. Составлен алгоритм диагностики аутоиммунных нарушений при олигоменореи. Таким образом, у женщин репродуктивного возраста с олигоменореей выявлено развитие аутоиммунного поражения яичников и аутоиммунная агрессия в отношении щитовидной железы. Настоящее исследование позволяет рекомендовать использование предложенного нами диагностического алгоритма у данного контингента женщин.

Müllerian hormone, and antibodies to ovaries, thyroglobulin and thyroperoxidase are determined in the blood. ELISA and immunochemiluminescent method were used. Statistical analysis was performed in Excel Statistica (StatSoft, USA). Results. The average age, height, weight and BMI of women in the main group did not differ significantly from those in the control group. In patients of the main group, in comparison with the control group, the number of spontaneous miscarriages (p = 0.045, t = 2.02) and premature births (p = 0.047, t = 2.00) was increased. The volume of the ovaries, the width of the stroma and the number of follicles were statistically significantly higher than those in the control group by 54.54% (p = 0.028, t = 2.21), 45.50% (p = 0.031, t = 2.17) and by 26,64% (p = 0.027, t = 2.23), respectively. The number of follicles with a diameter of 2-5 mm and 6-9 mm was also higher in women of the main group - by 17.2% (p = 0.0325, t = 0.99) and by 32.30% (p = 0.194, t = 1.30), respectively. In the thyroid gland in the main group, autoimmune changes were found by 76.9% (p <0.001), nodes - by 26.6% (p <0.05) more often than in the control group. In women of the main group, in comparison with the control indicators, the levels of AOA, AB-TPO and AB-TG increased by an average of 2.1 (p = 0.044), 7.1 (p = 0.003) and 3.5 times (p = 0.024), respectively. An algorithm for the diagnosis of autoimmune disorders in oligomenorrhea has been compiled. Conclusion: In women of reproductive age with oligomenorrhea, the development of autoimmune damage to the ovaries and autoimmune aggression against the thyroid gland were revealed. This study allows us to recommend the use of the proposed diagnostic algorithm for this contingent of women.

ƏDƏBİYYAT

1. Ахмедова Ш.У., Садыкова Д.Ш. Нарушения менструального цикла у женщин фертильного возраста с ожирением. Международный эндокринологический журнал. 2015; 8(72): 78-82. DOI: 10.22141/2224-0721.8.72.2015.72343
2. Dheresa M., Assefa N., Berhane Y. et al. Gynecological Morbidity among Women in Reproductive Age: A Systematic Review and Meta-Analysis. J Women's Health Care. 2017; 6: 367-377. DOI: 10.4172/2167-0420.1000367
3. Vanitha D., Edward S., Varadharajan S., Rani M.A. A Community Based Study on Menstrual Disorders Among the Rural Women of Reproductive Age. International Journal of Women's Health and Reproduction Sciences. 2017; 5(4): 270-276.

4. Kwak Y., Kim Y., Baek K.A. Prevalence of irregular menstruation according to socioeconomic status: A population-based nationwide cross-sectional study. PLoS ONE. 2019; 14(3): e0214071. DOI: 10.1371/journal.pone.0214071
5. Ахундова Н.Э. Клинико-диагностические особенности у больных с гипертиреозом и с синдромом гиперандрогении в репродуктивном периоде. Акушерство, Гинекология и Репродукция. 2019; 13(4): 279–288. DOI: 10.17749/2313-7347.2019.13.4.279-288
6. Климов В.С., Абатурова Л.О., Любимая Д.Р. Нарушение репродуктивной функции при патологии щитовидной железы. Молодой ученый. 2017; 14.2 (148.2): 22-25. URL: https://moluch.ru/archive/148/41871
7. Komorowska B. Autoimmune premature ovarian failure. Prz Menopauzalny. 2016; 15(4): 210–214. DOI: 10.5114/pm.2016.65666
8. Silva C.A., Yamakami L.Y., Aikawa N.E. et al. Autoimmune primary ovarian insufficiency. Autoimmun Rev. 2014; 13: 427–430. DOI: 10.1016/j.autrev.2014.01.003.
9. Абдул-заде И.Э., Новикова В.П., Орешко Л.С. Антиовариальные антитела у девочек-подростков и женщин, страдающих целиакией. Журналъ акушерства и женскихъ болезней. 2008; LVII: 60-63.
10. Luborsky J. Ovarian autoimmune disease and ovarian autoantibodies. J Womens Health Gend Based Med. 2002; 11(7): 585-99. DOI: 10.1089/152460902760360540.
11. Gleicher N, Kushnir VA, Barad DH. Prospectively assessing risk for premature ovarian senescence in young females: a new paradigm. Reprod Biol Endocrinol. 2015; 13:34. DOI: 10.1186 / s12958-015-0026-z.
12. Haller-Kikkatalo K., Uibo R., Kurg A., Salumets A. The prevalence and phenotypic characteristics of spontaneous premature ovarian failure: a general population registry-based study. Hum Reprod. 2015; 30: 1229-1238. DOI: 10.1093 / humrep / dev021.
13. Денисенко М.В., Курцер М.А., Курилов Л.Ф. Динамика формирования фолликулярного резерва яичников. Андрология и генитальная хирургия. 2016; 17(2): 20-28. DOI: 10.17650/2070-9781-2016-17-2-20-28
14. Дмитриева М.Л., Тихоновская О.А., Невоструев С.А. и др. Проявления аутоиммунных процессов в яичниках при воспалительных заболеваниях органов малого таза у женщин. Бюллетень сибирской медицины. 2012; 4: 107-110. DOI: 10.20538/1682-0363-2012-4-107-110
15. Forges T., Monnier-Barbarino P., Faure G.C., BeÂneÂ M.C. Autoimmunity and antigenic targets in ovarian pathology Human Reproduction Update. 2004; 10(2): 163-175. DOI: 10.1093/humupd/dmh014
16. Горенко И.Н., Киприянова К.Е., Типисова Е.В. Тиреоидные гормоны и уровень антител у здоровых жителей Архангельской области. Экология человека. 2018; 9: 36-41.
17. Зайчик А.Ш., Полетаев А.Б., Чурилов Л.П. Естественные аутоантитела, иммунологические теории и превентивная медицина. Вестник Санкт-Петербургского университета. 2013; 11(2): 3-16. DOI: 10.13140 / 2.1.4460.5440

HETEROTOPİK HAMİLƏLİK: KLİNİKİ HAL

C.F. Qurbanova, A.F. İsmayılova, T.Ş. Əliyeva, T.H. Əlinağıyeva
Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı, Azərbaycan

Açar sözlər: *heterotopik hamiləlik, ektopik hamiləlik, kəskin qarın, ekm, köməkçi reproduktiv tenologiyalar*

Heterotopik hamiləlik, hamiləliyin eyni anda iki fərqli yerə implantasiyası, yəni ekstrauterin və intrauterin hamiləliyin birlikdə rast gəlinməsidir [1,2]. Bu patalogiya ilk dəfə 1708-ci ildə Duverney tərəfindən autopsiya zamanı aşkarlanmışdır. Bele ki, boru hamiləliyinin pozulmasından ölən qadında uşaqlıqdaxili hamiləlik də təyin edilmişdir [3].

Spontan tsikldə heterotopik hamiləliyin rast gəlmə tezliyi 1:30000dir. Köməkçi reproduktiv texnologiyanın istifadəsindən sonra baş vermiş hamiləliklərdə bu göstərici 1:3600-1:100 nisbəti arası dəyişir [4,5,6]. Ovulyasiyanın induksiyası, KRT istifadəsi, coxlu sayda embrion transferi riski artırmaqdadır [7].

Heterotopik hamiləliyin səbəbi olaraq İVF texnologiyalarının istifadəsi, keçirilmiş pelvik infeksiya, salpingit, endometrioz, anamnezdə keçirilmiş boru əməliyyatlar və hamiləliklərin olması, Müller anomaliyaları göstərilməkdədir [2,4,8]. Ən çox rast gəlinən forması uşaqlıq daxili hamiləlik və uşaqlıq borusunun ampulyar hissəsində yerləşmiş ektopik hamiləlikdir (80%) [1,3].

Heterotopik hamiləliyin erkən diaqnostikası borunun cırılması, daxili qanaxmalar ve bunun nəticəsində əmələ gələ biləcək hipovolemik şok ve həyati riskin varlığı baxımından çox önəmlidir (4,6,8). Belə hallarda ölüm faizi maternal 1%, intrauterin fetus üçün isə 45-60%(10) təşkil edir [4,6,8].

Heterotopik hamiləlikdə klinik əlamətlər əsasən uşaqlıq borusu cırılan zaman ortaya çıxır. Bunlara daxili qanaxmaya bağlı peritoneal irritasiya nəticəsində qarın və qasıq nahiyyəsində şiddətli ağrı, kəskin qarın, pelvik kütlə,vaginal qanaxmadır [1,4,8]. Vaginal qanaxmanın olub olmamasından asılı olmayaraq, daxili qanaxma nəticəsində xəstə hipovolemik şoka düşə bilər [2,4,6,8]. Nadir hallarda, heterotopik hamiləlik çox erkən mərhələdə, tubal ektopik hamiləlik pozulma olmadan, asimptomatik olaraq da aşkarlana bilər.

Heterotopik hamiləliyin erkən diaqnostikasında ginekoloji müayinə, transvaginal-USG, MRT, dinamikada progesteron səviyyələrinin ölçülməsi, zərdab B-HCG incələnməsi əsasdır [1,2,4,5,8]. Lakin dinamik β-HCG izlənməsi yanaşı olan intrauterin hamiləlik səbəbi ilə yararsız ola bilər. TV-USG ilə intrauterin hamiləliyin təyini asan olsa da,ektopik hamiləlik üçün adneksial bölgədə döl kisəsi və ya fetal ürək vurğusunun görülməsi nadirdir. Xüsusi ilə də intrauterin hamiləliyin görülməsi, bərabərindəki ektopik hamiləliyi nəzərdən keçməməsi mümkündür. Buna görə də, İVF sonrası hamiləliklərin ilk trimestrində ektopik hamiləliyin inkişaf edə biləcəyi anatomik strukturların diqqətli olaraq vaginal USG ilə incələnməsi vacibdir.

İVF və ovulyasiyanın induksiyası aparılmış xəstələrdə aşkarlanmış ektopik hamiləlikdə cərrahiyyə öncəsi TV-USG ilə yanaşı olan intrauterin hamiləliyi ayırd etmək lazımdır. Müayinə zamanı hamiləlik görülməsə belə,ola biləcək intrauterin hamiləliyin pozulmaması üçün küretaj edilməməlidir.

Differensial diaqnoz başlanmış abort, yumurtalığın burulması, yumurtalıq kistasın cırılması, adneksiyal kütlə varlığı, appendisit, nefrolitiaz, ovarian hiperstimulasiya sindromu ilə aparılmalıdır. TV-USG ilə həm intrauterin, həm də ekstrauterin kisədə fetal ürək aktivliyi olan embrionun görülməsi diaqnozu təsdiqləyir [1,4,6,8].

Müalicə konservativ və cərrahi yolla aparılır, məqsədi isə uşaqlıq daxili hamiləliyi qorumaqdır. Metotreksat ilə sistem konservativ müalicə intrauterin hamiləliyə zərər verdiyi üçün əks göstərişdir, yalnız istənməyən intrauterin hamiləlik zamanı xəstənin ümumi vəziyyəti stabil olarsa istifadə oluna bilər. Medikamentoz müalicə yalnız boru cırılması və hemodinamik dəyişikliklər olmayan hallarda USG və ya laparoskopiya nəzarəti altında lokal aparılır. Bu məqsəd ilə KCl və ya hiperosmolyar məhlul istifadə edilir. Lokal inyeksiya zamanı infeksiyalaşma və cırılma riski artır. Ruptura və daxili qanaxma varlığında isə tək seçim cərrahi müalicədir. Hemodinamikası qeyri stabil olan xəstələrdə laparotomiyaya, hemodinamik stabil xəstələrdə isə laparoskopiyaya üstünlük verilməlidir [9,10,11-13].

Jennifer K. və həmmüəliflərin apardığı 12 il ərzində araşdırmaya əsasən 13 Heterotopik hamiləlik halı

aşkarlanıb. 10 halda laparoskopik salpinqoektomiya, 1 halda TV-USG nəzareti ilə aspirasiya, 1 halda local KCl inyeksiyası, 1 halda laparoskopik eksiziya icra edilib. Nəticə olaraq: 9 halda doğuş (32-40 həftə arası),3 halda inkişafdan qalmış hamiləlik, 1 halda dilatasiya və kuretajla sonlanmışdır [11].

Digər bir araşdırmada (2014 il) Y Yu və həmmüəliflər EKM - KRT-ın vasitəsi ilə əldə olunmuş 25 sayda 6-7 həftəlik heterotopik hamiləliyin retrospektiv analizində aşağıdakı nəticələr alınmışdır. 80% halda cərrahi müalicə (35% laparotomik, 65% laparoskopik salpinqoektomiya), 20% halda isə metotreksat və KCl ilə local medikamentoz müalicə aparılmışdır. Metotreksat verilmiş halların 88%-ində vaxtında canlı doğum (kongenital anomaliya yox/1il ərzində müşahidədə), 12%-ində isə abortus baş vermişdir. Sadəcə 1 halda tubal rupture və abdominal qanama qeydə alınmışdır [12].

Ümumilikdə heterotopik hamiləlik zamanı ekstrauterin hamiləliyə görə aparılan laparotomiyaların 9%-ində abort və ya ölü doğum, 16%-ində erkən doğum, 75% halda isə vaxtında doğum qeydə alınmışdır [13].


Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutuna 31 yaşında hamilə qadın, 02.04.2020 tarixində qarnın aşağısında və sol qalça nahiyyəsində olan kəskin ağrı şikayəti ilə qəbul olunmuşdur. Son aybaşı tarixi: 12.11.2019.

Anamnezindən 6 ildir evli olduğu, aybaşılarının requlyar olduğu, yanaşı xəstəliyinin olmadığı, hazırki hamiləliyin EKM köməkçi reproduktiv texnologiyalarının köməyi ilə əldə olunduğunu öyrənildi. Sorğu zamanı aydın oldu ki,hamilə qadının daha öncə başqa bir mərkəzdə aparılmış USM-sində (10.03.2020) uşaqlıq boşluğunda 12 həftə 3 günə uyğun hamiləlik aşkarlanıb (dölün urək vurğusu müsbətdir). (Şəkil 1) Sol paraovarial nahiyyədə yumurtalığa intakt yerləşimli təxmini ölçüsü 69.3x40.7 mm qeyri-düzgün konturlu zəngin vaskulirizasiyalı heterogen hipoexogen strukturlu əlavə izlənib. Duqlas boşluğu sərbəst qeyd olunub (Şəkil 2).

Şəkil 1.
12 həftə 3günlük hamiləlik.ÜV-162 vur/dəq



Şəkil 2.
Sol paraovarial nahiyyədəki 69.3x 40.7 mm heterogen hipoexogen strukturlu əlavə.




Xəstəyə ətraflı müayinə məqsədi ilə kiçik çanaq orqanlarının MRT-si məsləhət görülüb. 11.03.2020 tarixində aparılan MRT-də sol artımlar nahiyyəsində 69x57x88 mm ölçüdə hemorragik xarakterdə maye toplantısı izlənib və hemorragik kist cırılması kimi qiymətləndirilib. Xəstəyə dinamik müayinə məsləhət görülüb. Lakin 4 həftə sonra ani yaranan şiddətli ağrılar səbəbi ilə xəstə mərkəzimizə müraciət edib.

Xəstənin qəbul zamanı huşu aydın, ümumi vəziyyəti kafi, A/t 100/60 mmHg, nəbz: 88 vurğu/dəq olub. Ginekoloji müayinə zamanı uşaqlıq boynu traksiyada ağrılı, uşaqlıq 16 həftəlik hamiləliyə uyğun böyümüş ölçüdə, yumşaq, konturu hamar, sol artımlar nahiyyəsi kəskin ağrılı qeyd olundu.
Qarın nahiyyəsi palpasiyada sol qalça nahiyyəsində kəskin ağrılı, peritonun qıcıqlanma simptomu müsbət olub. Ultrasonoqrafik müayinədə: uşaqlıqdaxili 16 həftə 3 günlük canlı hamiləlik, duqlas boşluğunda təqribən 300ml sərbəst maye, sol adneksial nahiyyədə (sol uşaqlıq borusu proyeksiyasında) 96x52mm ölçüdə qarışıq strukturlu ,periferik vaskulirizasiyasi olan sahə izləndi(Şəkil 3).Qeyd edək ki,bu sahənin ölçüsü dinamik US müayinədə böyüməsi izlənirdi.

Şəkil 3.

16 həftə3 günlük hamiləlikdə sol adneksial nahiyyədəki 96x52mm qarışıq strukturlu (a), periferik vaskulirizasiyalı sahə (b)



a b

Daxili qanaxma və kəskin qarın səbəbi ilə xəstəyə təcili olaraq laparotomiya icra edildi. Əməliyyat zamanı qarın boşluğunda təqribən 500 ml sərbəst maye və qan laxtalarının mövcudluğu, sol borunun ampulyar hissəsində cırılma olmuş boru hamiləliyinin olduğu təyin edildi. Soltərəfli tubektomiya icra olundu. Qarın boşluğu sanasiya və drenaj edilərək bağlanıldı. Alınmış material patohistoloji müayinəyə göndərildi. Histopatoloji müayinədə boru hamiləlik təsdiq edildi.

Əməliyyatdan 3 gün sonra xəstənin uşaqlıqdaxili hamiləliyi davam edərək, (USM-də DÜD-müsbət) kafi vəziyyətdə evə yazıldı. İntrauterin hamiləlik 14.09.2020 tarixində vaxtında Qeysəriyyə kəsiyi əməliyyatı ilə başa çatdı, cinsi kişi, çəkisi 3200 qr, boyu 51sm sağlam uşaq doğuldu (Apqar şkalası ilə 7/8 bal ilə qiymətləndirildi).
Beləliklə, ağrı, qanaxma şikayəti və kəskin qarın əlamətləri ilə müraciət edən bütün birinci trimestr hamiləliklərdə, xüsusi ilə də EKM - KRT-nin istifadəsi məlumdursa, heterotopik hamiləlik ehtimalı nəzərdə tutulmalıdır. Bu xəstələrdə USG ilə intrauterin hamiləlik görülmüş olsa belə, bütün çanaq orqanları diqqətli şəkildə incələnməli, differensial diaqnozda heterotopik hamiləlik düşünülməlidir.

SUMMARY

Heterotopic Pregnancy.
Case Report

J.F. Qurbanova, A.F. Ismayilova,
T.Sh. Aliyeva, T.Q. Alinagiyeva
Scientific Research Institute of Obstetrics and Gynecology, Baku, Azerbaijan

Ключевые слова: *гетеротопическая беременность, внематочная беременность, острый живот, ЭКО, вспомогательные репродуктивные технологии*

Гетеротопическая беременность - это одновременная имплантация двух разных беременностей, то есть одновременное возникновение внематочной и внутриутробной беременности. Причины гетеротопных беременностей являются использование технологий искусственного оплодотворения, ранее перенесенных тазовых инфекций, сальпингит, эндометриоз, а также история хирургии маточных труб и наличие беременности, аномалии Мюллеровых протоков. Наиболее частыми формами являются внутриутробная беременность и внематочная беременность с локализацией в ампулярной части маточной трубы (80%). В этом клиническом случае был представлен случай гетеротопной беременности после цикла ЭКО. К счастью, разрыв трубной беременности был диагностирован вовремя, и была оказана необходимая помощь при нормальном развитии внутриутробной беременности и доношенных родах путем кесарева сечения.

РЕЗЮМЕ

Гетеротопическая беременность.
Клинический случай

Д.Ф. Курбанова, А.Ф. Исмаилова,
Т.Ш. Алиева, Т.Г. Алинагиева
Научно-исследовательский Институт Акушерства и Гинекологии, Баку, Азербайджан

Key words: *heterotopic pregnancy, ectopic pregnancy, acute abdomen, IVF, assisted reproductive technologies*

